# SÖZÜN GÜCÜNƏ İNAMIN İŞIĞINDA

## *Sabir Rüstəmxanlının mənəvi problemlərə həsr olunan publisistik yazıları üzərində düşüncələr*



***Şəddat CƏFƏROV,***
***iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru,***
***Azərbaycan və Rusiya Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü,***
***Beynəlxalq Yazarlar Birliyinin üzvü***

Sabir Rüstəmxanlı haqqında düşüncələrimi ilk dəfə yazıya alarkən onun haqqında geniş və əhatəli yazacağım haqqında düşünmürdüm. Sadəcə diqqətimiz cəlb etmiş əsərlərinə münasibət bildirmək fikrində idim. Düşünürdüm ki, Sabir Rüstəmxanlı kmii qüdrətli bir sənətkarın haqqında elmi araşdırmalar aparanlar daha məsuliyyətlə, daha mükəmməl yazmış olarlar. Ancaq mən özüm də mənəvi borcumu yerinə yetirmək niyyətindən geri çəkilmək fikrində deyildim. Onun bir neçə kitabı üzərində əhatəli düşünməli oldum. Yəni, onun bəzi yaradıcılıq örnəklərini, özü də son nəşrləri vərəqlədikcə fikir məni daha dərinlikərə çəkdi, onun haqqında yazılanlara da baxmalı oldum. Beləliklə, Sabir Rüstəmxanlının mənəvi mühitini əhatə edən düşüncələr silsiləsimni ardıcıl olaraq yazıya gətirdim. Əlbəttə, Sabir Rüstəmxanlıda sözün gücünə sonsuz inam var, çünki o, cəmiyyəti sözü ilə görür. Fikir və düşüncələri ilə insan haqqında, insanlıq haqqında qənaətlərini yazıya gətirir. Sabir Rüstəmxanlının mənəvi ucalığı, daxili zənginliyi, bir sənətkar kimi bu gün də məhsuldarlıqla yazıb-yaratması da müasirlərin diqqətindədir. Dostum Əli Rza Xələflinin sosial şəbəkə yayımlanan düşüncələri mənim üçün də çox maraqlı oldu: *"Dağların zirvəsindən bütün təbiəti müşahidə etmək olur. Bu, təbii bir ucalıqdır. Həmin ucalıqdan baxmaqla təbiətin kölgəli yerlərini, dərələrini, dağlarını, su istəyən səhralıqlarını, bulaqlı yaşıl irmaq vadilərini daha aydın görmək olur. Bəzən insan ətraf mühitlə, təbiətlə elə göz dilində danışa bilir. Gözü ilə gördüklərini yaddaşına yığır, varlığına hopdurur. Bununla da həm onu əhatə edən təbii aləm haqqında təsəvvürə malik olur, həm də ruhu etibarı ilə zənginləşir, özü ilə təbiət arasında bir doğmalıq hissi yaratmış olur. Böyük şəxsiyyətlər, cəmiyyətin keçmişini yaxşı bilən, bu gününü bütün əlvanlığı ilə görən, gələcəyi haqqında düşünə bilən insanlar da uca dağ timsalındadır. Onların düşüncələrinin mahiyyətinə varmaqla biz cəmiyyətrin üzləşdiyi bəlalarını yaxşı görə bilər, insanların gələcəyinə aparan doğru yolu daha aydın seçərik. Bu gün Azərbaycan mənəvi mühitində Sabir Rüstəmxanlı uca bir dağ timsalındadır. Onun bütün varlığı, təbiəti insanlığın taleyinə məsuliyyət hissi ilə yoğrulub. O sanki Azərbaycan adlı bir dağın zirvəsindən ulu keçmişimizə qədər boylanır. Bu günümüzü bütün rəngləri ilə görə bilir və əlbəttə, buradan uzaq gələcəyə də yaxşı baxa bilir. Biz əslində Sabir Rüstəmxanlı kimi düşüncə adamlarının yazdıqlarını diqqətlə öyrənməklə qarşılaşa biləcəyimiz problemlərin həlli yollarını da aydın görə bilərik. Elələri tapılır ki, Sabir Rüstəmxanlını deputat kürsüsünə sahiblənən yol çəkən kimi təsəvvür edir. Onu belələrinin düşüncəsində yolun çınqılını təmizləyən qırbasan kimi təsəvvür etmək əslində milli faciəmizdir. Halbuki, Sabir Rüstəmxanlı ruhumuzun, mənəvi mühtimizin qoruyucusu, milli düşüncəmizin ölməzliyini təmin edən fikir qaynağıdır. Biz Sabir Rüstəmxanlını məhz bu cür milli düşüncə qaynağı kimi görməliyik".* Zənnimcə, bu düşüncələrdə müəllif böyük söz adamına münasibətdə mənəvi korluğun acınacaqlı durumunu çox aydın və dəqiq göstərə bilib. Axı niyə belə olmalıdır, nə üçün biz daha böyük amallar uğrunda mübarizə aparan şəxsiyyətləri bir fəhlənin görə biləcəyi işin sahibi kimi təsəvvür edirik və belə düşüncəmizlə onun kimliyinə münasibət bildirməyə çalışırıq. Əlbəttə, söhbət burnunun ucundna o tərəfəni görə bilməyən adamlardan gedir.

Sabir Rüstəmxanlının "Borc" adlı essesi var. "Vətəndaşlığın əlifbası" kitabında yer alıb. Müəllif elə yazının əvvəlindəcə görkəmli şairimiz Fikrət Qocanın misralarına tapınır: "Ataya borcluyam mən, anaya borcluyam mən, hamıya borcluyam mən". Bundan sonra məhz bu misraların da aşıladığı borc hissinin mahiyyətinə nüfuz edir. Şübhəsiz, hər bir düşüncəli adamın daxili aləmində özünə yer almış hissdir. Borc duyğusu, biz kimlərin qarşısında və nə zaman özümüzü borclu bilirik? Müəllif borc hissinin mahiyyətinə vara-vara dərinliklərə doğru yol alır: *"Ömrün günəşi üfüqə əyilir, lakin mən gənclik vərdişiylə hər bahar bəhrəsini görməyəcəyim və əslində bəhrəsinə ehtiyacım olmayan meyvə fidanları basdırıram, oxunub-oxunmayacağını bilmədən şeirlər yazıram, önümdə açılan əli boş qaytara bilmirəm, yüz cür qınaq eşidə-eşidə sözün düzünü deməyə çalışıram, xoş niyyət və xoş düşüncələrimi hamı ilə paylaşmağa çalışıram, torpaqlarımızın şoranlaşması, çaylarımızın quruması ürəyimi ağrıdır, dostları sevindirmək xətrinə dünyanın o başına uçuram... Niyə? Ona görə ki, izahı çətin olan başqa bir borc duyğusu da var: İnsanlıq borcu..."*. Mətnin içərisində müəllifin çox maraqlı düşüncələri əks olunub. Deməli, insanın düz sözü danışmasının özü də cəmiyyət qarşısında ən möhtəşəm borc hissindən irəli gəlir. Müəllif borc hissindən danışa-danışa doğma yerləri yada salır. Yardımlıdakı evi ilə bağlı düşüncələrini də yazıya gətirir. Maraqlı yer-yurd adlarını yada salır. Bir növ özü demiş, Xoca Döngədən aşıb Ərdəbilə gedən yola çıxır. Çoban çağıran və Holavar qayalarına baxır. Bir daha qeyd etmək yerinə düşər ki, bu adların hər birinin arxasında xalqın tarixi düşüncəsindən gələn müəyyən əhvalatlar, rəvayətlər, əfsanələr yaşayır. Həmişə adına hörmətlə yanaşdığı Şah İsmayıl Xətainin xatirəsini yaşadan Şahnişin yaylasını, Sarıbulaqdakı qədim qəbirstanı gözlərini önünə gətirir. Beləliklə, müəllif borc hissinin insanı çıxdığı yolun hər anında, hər qədəmində müşayiət etdiyini bildirir. Müəllifin düşüncəsinə görə müqəddəs borc hissi çox vaxt insanı yolunu azmaqdan qoruyur. Axı insan yolunu azanda borc hissini də unudur. O artıq insanlıqdan çıxmış olur. Məhz burada Sabir Rüstəmxanlı insan gözəlliyinin mahiyyətini məhz borc hissinə sadiqliyi ilə bağlayır: *"İnsan gözəlliyi bütün gözəlliklərin üstündədir. İn sanın vəhşiliyi bütün vəhşiliklərin altında olduğu kimi. Həyat müəllimlərimizə borcumuzu nə ilə hesablamaq, ölçmək və bu borcu necə qaytarmaq olar? Həyatın əbədi suallarından və əbədi qanunlarından biri budur: Sənə layla oxuyana sən də layla oxuya bilmirsən, sənə əlifba öyrədənə əlifba öyrədə bilmirsən. Layla deyəninin üstündə ağı deməkdən, əlifba öyrədəninə məktublar yazmaqdan başqa yolun qalmır. Sən laylanı özündən sonra gələnə deyəcəksən. Yaxşılıqlar estafet kimidir, əlindən aldığına yox, səndən sonrakına ötürürsən. Torpağa atılan toxumlar toxum kimi qayıtmır, körpə cücərtilərin başında qayıdır, qabıq kimi. Sap kimi nazik cücərtilər qara torpağı yarıb onu içində bəsləmiş qabığını başında qaldırır, sanki dünyaya göstərir ki, baxın mən bu özümdən uca tutduğumun, başımda qaldırdığımın övladıyam, məni bu işıqlı dünyaya gətirən odur, o mənə həyat verdi, lakin mən də ona həyat verə bilmərəm, mən onun yadigarı olan həyat cövhərini özümdən sonrakına ötürə bilərəm. Biz borcumuzu özümüzdən əvvəlkilərə, bizə həyat verənlərə, bizə əl tutanlara , yol güstərənlərə qaytara bilmirik, sonrakılara, həyat verdiklərimizə, yol göstərdiklərimizə "qaytarır" və yolun qırılmağına imkan vermirik"*. Bir sözlə, müqəddəs borc duyğusu nəsildən-nəsilə ötərək insanın varlığında yaşayır. Bir növ cəmiyyətin mənəvi nizamını təmin edir. Mənə çox xoş gələn məqamlardan biri də "Borc" essesinin Nəriman Nərimanovla bağlı olan əhvalatla axıra çatmasıdır: *"Bu sətirləri yazarkən bir də türk tarixinə qızıl hərflərlə yazılmalı olan bir cümlə - doktor Nərimanın böyük Atatürkün "borcunuzu qaytararıq" sözünə verdiyi yanıt düşür: "Qardaş qardaşa borc verməz". İnsan borc duyğusundan heç vaxt qurtara bilmir. O heç kəsə borclu olmasa belə, həmişə borcludur, üstündə doğulduğu torpağa, ata-anaya, millətinə, yurduna, insanlığa..."*. Nəriman Nərimanovun bu sözləri dediyi vaxtdan bir əsrdən də çox keçib. Ancaq insanları doğmalaşdıran, bir-birinə dayaq olmaq borcunun mahiyyətinə işıq salan və Nəriman Nərimanovun dilindən çıxıb on illiklər boyu xalqımızın varlığında yaşayaraq dövrümüzə çatmış dəyərli düşüncə qənaəti əslində bu gün də öz qiymətini saxlayır.

Sabir Rüstəmxanlının maraqlı esselərindən biri də "Cəmiyyət" adlanır. O, cəmiyyəti əvvəlcə sanki mücərrəd bir anlayış kimi xarakterizə edir. Həqiqətən Sabir Rüstəmxanlı demiş, cəmiyyətin sərhədi haradan başlayır, harada bitir. Bir hay-küyə qızışıb hansısa bir günahsızı daşlamağa hazır olan kütlədirmi cəmiyyət? Müəllif narahatlığını bu tipli ritorik suallarla bəyan edir.

Hətta özünün uşaqlığını xatırlayaraq bəzi hisslərini, duyğularını da yazıya gətirir. Qeyd edir ki, həmişə özümü tək-tənha, insanlar arasında kimsəsiz hiss etmişəm. Yaxşı olar ki, elə onun öz yazdıqları ilə fikirlərinə işıq salaq: *"Uşaqlıqdan bəri mən, nədənsə, cəmiyyətdə həmişə özümü yad, qərib hiss eləmişəm. Çünki o cəmiyyət heç vaxt mənim olmayıb. Nə sovet cəmiyyəti, nə indi üzvü olduğum cəmiyyət. Çünki onlar həmişə məni ya azməyə çalışıb, ya da özünə borclu sayıb, insana şəxsiyyət kimi yox, qum dənəsi kimi baxıb. Böyük cəmiyyətin yox, ailəmizin, ayrı-ayrı müəllimlərin, yaxın dostların köməyini : hiss etmişəm, cəmiyyətin qoluma, zehnimə vurduğu qan- dalları məhz azsaylı doğmalar qırıb töküb. Sovet dövrünün təhsil və tərbiyə sistemi bizi haqsızlığı, qorxunu, yoxsulluğu xoşbəxtlik kimi qəbul etməyə, totalitarizmi, köləliyi, başqa xalqın ağalığını təriflməyə və tərənnüm etməyə sövq edir, bizi özü üçün, öz qurbanlığı kimi yetişdirirdi. Azadlıq ruhumuz cəmiyyətin ehkamlaşdırılmış təslimiyyət, köləlik qayalarından süzülən su damlalarına bənzəyirdi. Biz özümüzü bu damlalardan yaratmışıq. Təhsil almaq, ali məktəbdə oxumaq, işə düzəlib ağlımızın və əlimizin bəhrəsini satmaq - sovet cəmiyyətinin sosial bəxşişi, səadət kimi təqdim edilirdi. Siyasi xəritələr, xalq adından uydurulmuş normalar beynimizə köçürülmüşdü. Başqa cür düşünmək olmazdı. Əslində bütün cəmiyyətlərin şəxsləri özündən asılı vəzyyitlərdə saxlamaq, özünə əsir etmək vərdişi var. Cəmiyyətin tərkibinin bircinsli, ya qarışıq, milli və ya beynəlmiləl olması burada az rol oynayır"*. Əlbəttə, göründüyü kimi o, Sovet dövrünün mənəvi eybəcərliklərini də doğru-düzgün xarakterizə edir. İstər-istəməz bu düşüncələri oxuduqca biz özümüz də necə bir ziddiyyətli mühitdən keçib gəldiyimizin fərqinə varmalı oluruq. Əlbəttə, Sabir Rüstəmxanlı xalqın mənəvi mühitini təmin edən dəyərli sənət abidələrini güc mənbəyi kimi xatırlayır. Xüsusilə Dədə Qorqudu xatırlamaqla Azərbaycan cəmiyyətinin hər cür aşınmalara qarşı apardığı mübarizələrdə nə üçün özünü hifz edə bildiyini məhz Dədə Qorqud ənənələri ilə bağlayır.

***(Davamı 11-ci səhifədə)***

*(Əvvəli 10-cu səhifədə)*

Ərəblərin Azərbaycana gətirdikləri bir sıra zorakılıq ənənələri Azərbaycan cəmiyyətini aşındırmağa xidmət edirdi. Hər halda Azərbaycan cəmiyyəti özünü hifz edə bildi. Bu günlərdə Sabir Rüstəmxanlının bir televiziya çıxışını da dinlədim. O göstərdi ki, Azərbaycan xalqı öz valtrığına qəsb edən hər hansı ənənədən imtina edə bilər. Ancaq özünün milli tarixi dəyərlərindən heç vaxt imtina etməz.

Sabir Rüstəmxanlı kimi ziyalıların əsas məqsədi odur ki, cəmiyyət mənəvi olaraq sağlam, ahəngdar bir mühitdə inkişaf etsin. Əlbəttə, işğalçı, qəsb etdiyi torpaqları istismar edən qüvvələrin əsas məqsədi odur ki, ağalıq etdiyi yerlərin əhalisini ruhən öldürsün. Onların gücünü sarsıtsın. Ancaq həmişə cəmiyyətin içərisindən elə oğullar parlayıb çıxır ki, əzici qüvvələr nə qədər güclü olur-olsun, onlara sinə gərib məqsədlərini, məramlarını yarı yolda darmadağın edirlər. Sabir Rüstəmxanlının cəmiyyətlə bağlı düşüncələri, zənnimcə, həmişə maraqlı olacaq çünki bu düşüncələrdə o, milli qüvvələrlə anti milli qüvvələrin qarşılaşmasının əsl obyektiv mənzərəsini yaradır. Yəni hər kəs oxumalı və nəticə çıxarmalıdır. Zənnimcə, Sabir Rüstəmxanlının belə düşüncələrini diqqətlə oxumaq bu gün üçün də çox vacibdir: *"Öz milli cəmiyyətimizi qurmaq, xalqı yad işğalından qurtarıb müstəqilliyinə qovuşdurmaq əzmi ilə irəli atıldığımız illərdə də "milli" dediyimiz, doğma saydığımız cəmiyyətin ayrı sifətlərini gördük. Öncə bu, ikiüzlü bir cəmiyyət idi, milli qüvvələrin yanında bir cür, Moskva ilə ayrı cür danışırdı. Bu dövr başa çatanda bəlli oldu ki, heç öz "düşməndən arıtlanmış" cəmiyyətimiz də arzuladığımız şəkildə "bizim" deyildir. Sən bu cəmiyyətə azadlıq istəsən də cəmiyyət sənin azadlığını istəmir, Cəmiyyət sənin böyüklüyünlə, ağlınla, cəsarətinlə bacarmalıdır, bunun üçün cəsarət lazımdır.* Elə bu cür mənəvi problemləri o, "Cəsarət" adlı nisbətən kiçik publisistik qeydlərində daha aydın təqdim edə bilmişdir.

Sabir Rüstəmxanlı "Cəsarət" essesində yazır: *"Yazıçıları, cəsarətli və ya cəsarətsiz deyə, qisimlərə bölə bilmirəm. Məncə, əsas ölçü poetik istedadın özündə, onun söykəndiyi ədəbi ənənələrdə, şairin özünü və zamanı ifadə etmək mədəniyyətindədir. İstedadlı adam qorxaq ola bilməz. Bir də insanın keçdiyi yol, həyat tərzi, uşaqlıq tərbiyəsi, bağlandığı amal həlledicidir. Ağlım kəsəndən özümə aid olan bir həqiqəti dərk eləmişəm. Mənim üçün asan yol yoxdur, bir tikə çörəkdən, ən adi məişət qayğılarından tutmuş, dediyim sözün taleyinə qədər, hər şey çətindir və heç biri asan qazanılmayacaq. Bu həqiqəti duyandan və onunla barışandan sonra insanın sözün düzünü deməkdən və onun çətin yolunu təmizləməkdən başqa çarəsi qalmır".* Bu qeydlərdə o, 70-ci illərdəki poetik yaradıcılığının insanların ruhuna təsirini də öncədən xatırladır. Amma əsas belə bir psixoloji vəziyyətə diqqəti yönəldir ki, cəmiyyət hər hansı bir yeniliyə hazır olmaya bilər. Amma bu yeniliklərə biz hazırlamağı bacarmalıyıq.

Zənnimcə, Sabir Rüstəmxanlının bütün yaradıcılığı cəmiyyəti fdaha mütərəqqi dəyişilmələrə hazırlamaq missiyası daşıyır. Çünki əgər sənətkar hər hansı bir yeni ideyanı irəli sürəcəksə, bunun üçün cəmiyyətinreaksiyasını, münasibətini qabaqcadan görməyi bacarmalıdır. Ona görə də bədii yaradıcılıq bu yolda ən güclü vasitədir. Sabir Rüstəmxanlı da əslində inqilabi düşüncələrini həyata keçirməzdən əvvəl inqilabi şeirləri ilə insanların varlığına təsir etmək, onların güclərini səfərbərliyə almaq məqsədini, məramını əsas götürürdü. Səttar Bəhlulzadə küçəsi ilə bağlı xatirələrini də maraqla oxudum. Bəzən bizə elə gəlir ki, bir çox milli problemlər cəmiyətin inkişafı ilə təmin olunub. Yəni asanlıqla özünə yol açıb. Amma Sabir *bı"m da, əslində, xəyalımda yenidənqurmadan əvvəl doğulmuşdu. "Qan yaddaşı" şeirlər kitabımla "Ömür kitabı"ma qoşa qanad kimi baxıram. Sonuncu kitabın yaranma fikri elə "Qan yaddaşı"ndakı şeirlərdən doğulub. "Ömür kitabı" da qanın və ruhun yaddaşı ilə yazılıb".* Bundan sonra Sabir Rüstəmxanlının maraqlı bir qeydi gəlir. O yazır ki, ölümün üstünə gedə bilmək cəsarətdir. Məhz bu cəsarət ölümü insandan uzaqlaşdıra bilir. Zənnimcə, bu qənaətlər zaman-zaman xalqın yaddaşında yaşamağa layiqdir.

Əslində Sabir Rüstəmxanlının publisistikası ona görə dəyərlidir ki, bu qeydlərin hər birində dövründə psixoloji mühiti bütün obyektivliyi ilə canlanır. Bir növ gələcək üçün əslində bir mənəvi dərslik məhz belə publisistik əsərlərlə formalaşmış olur.

Cəmiyyətin ən müxtəlif tərəflərinə işıq salmağa çalışan Sabir Rüstəmxanlı kimi ziyalılar din məsələsinə də biganə qala bilməzlər. Onun "Dinimiz imanımız" adlı publisistik düşüncələri sanki türk ruhunun dinlərdən keçdiyi yolun tarixinə işıq salır: *"Türklər İslama qədər Avroasiyada mövcud olmuş əsas dinlərin çoxundan - totemizmdən, bütpərəstlikdən, Tanrıçılıqdan, manaizmdən, lamaizmdən, yəhudlikdən, xristianlıqdan, atəşpərəstlikdən keçib sonda İslamda dayanıblar. Tanrıçılığa, yəhudiliyə, xristianlığa tapınan türklər yenə də var. İslamı türklərə sevdirən bir cəhət İslamın Tanrıçılığa bənzəməsi, bəlkə də bənzədilməsidir. Dünyada olan ilk təkallahlı dinlərdən biri və ya birincisi - Tanrıçılıqdır. İslam Tanrı ilə Allahı birləşdirdi. Onun Adını Anmaqdan, ona vətənimiz üçün duadan başlanır sözüm. Gözümüzü açıb gördüklərimiz, özümüz başda olmaqla, bütün çevrəmiz, yediyimiz çörək, içdiyimiz su, udduğumuz hava, isindiyimiz ocaq, getdiyimiz yol, yaşadığımız sevgi, daşıdığımız sevinc və kədər, oxuduğumuz nəğmə... Hər şey Yaradana aiddir. Onun malı, onun əsəri, onun nəfəsi, onun sözüdür... Bir şair demiş: kainat - Tanrının düşüncəsidir, yəni düşüncəsinin nəticəsidiri Bütün var olanların yaradanı Böyük Yaradan, bütün həqiqətlərin kökü Mütləq Həqiqətdir".* Doğru olaraq müxtəlif dini inanclara ötəri tezissayağı mülahizələrlə münasibət bildirir və nəhayət, yaradanın ulu güc mənbəyi olduğunu qeyd edir. Sabir Rüstəmxanlının düşüncəsinə görə hər şey yaradandan başlayır. Bütün yüksəlişlərin sonu məhz tanrıyacan gedən yola sonuclanır. Bu essedə müəllif müxtəlif haşiyələrə çıxır. Müxtəlif mənbələrə istinad edir. Nəhayət, "Tanrıya gedən yol" adı ilə insanın mənəvi yüksəlişini tərənnüm edir. O, söz arası qeydlərlə xalqımızın mənəvi tarixi ilə səsləşən sənət örnəkləri ilə bağlı qeydlərində ruhumuzun günümüzəcən gələn yolda yaratdığı dəyərləri məmnunluqla tərənnüm edir. Sarı gəlin haqqında danışır. Kurqanları yada salır. Burada xalçalarla bağlı bəzi məqamları diqqətə çəkir. Nəhayət, öz gündəliyindən maraqlı səhifələri də oxuculara təqdim edir. Birmənalı şəkildə ərəb işğalının gətirdiyi bəlaları da cəsarətlə diqqətə çəkir. Əlbəttə, ərəblərin türklərə münasibəti, Azərbaycan ərazilərindəki ərəb izləri ilə bağlı çox obyektiv mülahizələr bəzi xurafatçılara mübahisəli görünə bilər. Amma Sabir Rüstəmxanlı ziyalı cəsarəti ilə bu məqamları işıqlandırmaqdan çəkinmir.

# SÖZÜN GÜCÜNƏ İNAMIN İŞIĞINDA

*rışa bilmir. Səni ucada görəndə sitayişçiyə, səni sınmış görəndə cəllada dönür. Antimilli quvvələrə daha həvəslə dil tapır, onarı şişirdir. Cəmiyyətin içində dərin çatlar var: etnik, məzhəb, tayfa-bölgə çatları, hakimiyyətin və ya xarici qüvvələrin parası-puluna şirniklənələrin çatları... Dildə yurdunu, millətini bütöv görmək istəyən cəmiyyət səni bütöv görmək istəmir, sənin təbii böyüklüyünə kölgə salmağa çalışır. Cəmiyyət ideal olmadığına görə ideyal insanların yetişməsi üçün şərait yaratmır, bunu istəmir. Əyrilik, rüşvət, korrupsiya bataqlığında boğulan cəmiyyətin içində təmiz şəxsiyyətlərin yaşamaq imkanları minimuma enir, beyinlər donur, yaradıcılıq imkanları tükənir. Mücərrəd cəmiyyəti sevgisini insan sevgisinə çevirmək, böyük cəmiyyətlərdənsə böyük şəxsiyyətlərin yetişməsi qayğısına qalmaq lazımdır. Cəmiyyət, kütlə özünü güclü saya bilər, lakin yaradan, yol göstərən, ideyalar irəli sürən şəxsiyyətdir, kütlə deyil".* Burada Sabir Rüstəmxanlının meydan hərəkatı ilə bağlı xatirələri yer alır. Adamların ona münasibəti ən müxtəlif tərəflərdən şərh edilir. O dövrdə insanları kütləyə çevirmək cəhdləri tənqid olunur. Bütün bunlar omnu göstərir ki, Sabir Rüstəmxanlı cəmiyyətin mənəvi simasını bir psixoloq kimi, sənətkar kimi yaxşı öyrənib. O, cəmiyyətin necə asanlıqla kütləyə çevrilməsi prosesini də dəqiq müşahidə edib.

Sabir Rüstəmxanlının mənəvi mühitimizlə esseləri təkcə yazıldığı dövr üçün deyil. Bu günü öyrənmək baxımından gələcək nəsillər tərəfindən də maraqla qarşılanacaq.

Onsuz da hər bir sənətkarın ən ümdə mənəvi borclarından biri də öz dövrünə, zamanına, onu əhatə edən mühitə münasibətidir. Yaxşı olar ki, bu münasibət obyektiv olsun. Hər halda Sabir Rüstəmxanlı içərisindən keçib gəldiyi mühitə vicdanlı yanaşması ilə fərqlənən ziyalılarımızdandır. Bizə məlumdur ki, hər kəs cəmiyyətin mövcud durumuna münasibət göstərmək baxımından fəqrlənir. Sabir Rüstəmxanlının düşüncəsinə görə düzgün, doğru münasibət üçün insan xarakter olRüstəmxanlının "Cəsarət" adlı essesində bu yolun hansı dolambaclardan keçdiyini daha aydın görmək olar: *"Bəxtim onda kəsib ki, ədəbi fəaliyyətimin başlanğıcından "Ədəbiyyat və incəsənət" qəzetinə düşmüşəm. Azərbaycan xalqının və ədəbiyyatının problemlərini çəkinmədən demək arzuma bu qəzetdə az-çox professional bir sərištə də qarışıb. Yəni, necə deməyin, daha doğrusu, senzorları "aldada", inandıra bilməyin, yəni, onların şeytan tələsindən keçə bilməyin yollarını öyrənmişəm. 60-70-ci illərdə dərc olunmuş şeirlərimizin çoxunu belə fəndgirliklə, bəzən də uzun mübahisələrlə, inadla xilas etmişik. Bütöv bir şeiri işıq üzünə çıxarmaq üçün bəzən bəndlər qurban gedirdi, bir sözlə, iki sözlə pərdə çəkirdik, tutalqaç yeri, yalançı yozum yeri qoyurduq. Məsələn, "Səttar Bəhlulzadə küçəsi haqqında şəhər sovetinə açıq məktub" şeiri ilk dəfə nəşr olunanda balaca Bəhlulzadə küçəsinin "geniş, rahat, işıqlı Əmiryan" küçəsindən ayrılması etiraz doğurdu. Yəni, həyatda olan eybəcərliyi deyə bilməyənlər, mənim misrama etiraz edirdilər. Mən də çap xatirinə Əmiryanı "filankəs"lə əvəz etdim. Məgər ilk məqləb itdi? Məncə, yox. Neçə-neçə şeirimizi bu cür xilas kəlmələri, sözləri, bəndləri ilə caynaqdan qurtarıb üzə çıxarmışıq. Bəzən deyirlər ki, ədəbiyyata maneə gücləndikcə, bədii ifadə, deyim tərzi öz axtarışlarını daha da dərinləşdirir. Yəni, hər şeyi açıq demək imkanı artdıqca söz çılpaqlaşır. Bu fikirdə müəyyən bir həqiqət, qanunauyğunluq var. Poeziyanın bəlkə də ən kamil dövrü - sözün adi deyilişinin, çılpaq qafiyəpərdazlığın gülünc bir iş sayıldığı, şeirin qeyri-adi simvollar, axtarışlar, fəlsəfi dərinlik haləsinə büründüyü dövrlər olub. Ona görə də bəzən bugünkü şeir bizi doyurmur. Şeirdə sənə quru ağac parçası təqdim edilir. Əsl poeziya isə bu taxtanın oyma və şəkillərlə bəzədilməsindən sonra başlanır. "Gəncə qapısı", "Sağ ol, ana dilim", "Qan yaddaşı" kitablarımı həqiqət duyğusu ilə yazılmış kitablar sayıram və bu iddiamın lovğalıq sayılacağından qorxmuram. Bunlar yenidənqurmadan əvvəl yazılıb. Sonuncu - "Ömür kita-*

Sabir Rüstəmxanlının çox maraqlı bir "Dost" essesi var. Biz kimlərə dost deyirik, kimləri özümüzə yaxın bilirik? Biz daxili aləmimizdəki fikir və düşüncələrimizi kimlərlə axıracan bölüşə bilirik. Bu və ya digər dərəcədə insanları maraqlandıran belə ritorik sualların mahiyyətinə işıq salmaq bir çoxlarına asan görünə bilər. Amma Sabir Rüstəmxanlı üçün bu barədə yazmaq, özü də obyektivliyi ilə, çılpaqlığı ilə yazmaq bir çox hallarda problem yaratsa da, fikrini, məramını gizləməyib. Yəni asan olmayanı asan edə bilib. O, hələ sözünün lap əvvəlində bütün insanlıq üçün örnək ola biləcək bir söz düsturu işlədir: **"Gərək ilk növbədə özünlə dost olmağı bacarasan; özünlə, taleyinlə, Tanrınla".**

***(Davamı var)***